İPƏK YOLU, No.4, 2023, səh.50-61

DOI: 10.30546/1810-911X.2023.4.50

# MİQRASİYANIN MAHİYYƏTİ VƏ NÖVLƏRİNİN İDENTİFİKASİYASINA MÜASİR YANAŞMALAR

**Günel Məmmədova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: gunel-tmm86@mail.ru

**Xülasə.** Məqalədə müxtəlif mənbələrin təhlili əsasında miqrasiyanın xüsusiyyətləri, növləri tədqiq olunmuş, onun müxtəlif meyarlar üzrə təsnifatları sistemləşdirilmişdir. Müasir dövrümüzdə qloballaşmanın geniş vüsət alaraq, ən ucqar coğrafiyaları əhatə etməsi, bir-birilə şiddətli rəqabət şəraitində olan transmilli şirkətlərin yaratdığı qlobal istehsal zəncirləri, iqtisadi inkişaf və sosial rifah səviyyəsində dünya regionları arasında kəskin fərq, səngiməyən lokal müharibə və konfliktlər miqrasiya proseslərinə təsiri öyrənilir.

**Açar sözlər:** Məcburi miqrasiya, dairəvi miqrasiya, dövri miqrasiya, zəncirvari miqrasiya, mərhələli miqrasiya.

## THE ESSENCE OF MIGRATION AND MODERN APPROACHES TO THE IDENTIFICATION OF ITS SPECIES

**Gunel Mammadova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract**. In the article, based on the analysis of various sources, the characteristics and types of migration were studied, and its classifications according to various criteria were systematized. In our modern era, globalization has become widespread and covers the most distant geographies, global production chains created by transnational companies in fierce competition with each other, sharp differences between world regions in the level of economic development and social welfare, unabated local wars and conflicts, and the impact on migration processes is studied.
**Keywords:** Forced migration, circular migration, cyclical migration, chain migration, step migration.

## СУЩНОСТЬ МИГРАЦИИ И СОВРЕМЕННЫЕ ПОДХОДЫ К ИДЕНТИФИКАЦИИ ЕЕ ВИДОВ

**Гюнель Мамедова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье на основе анализа различных источников изучены особенности и виды миграции, а также систематизированы ее классификации по различным критериям. В современную эпоху глобализация приобрела массовый характер и охватывает самые отдаленные географические регионы, глобальные производственные цепочки, создаваемые транснациональными компаниями в условиях жесткой конкуренции друг с другом, резкие различия между регионами мира по уровню экономического развития и социального благосостояния, неутихающие локальные войны и конфликты. и изучено влияние на миграционные процессы.
**Ключевые слова:** Принудительная миграция, круговая миграция, периодическая миграция, цепная миграция, поэтапная миграция.

## 1. Giriş

Bəşəriyyətin yarandığı ilk dövrlərdən insan miqrasiyası mövcud olmuşdur. İlk vaxtlar miqrasiyanın səbəbləri, əsasən, iqlimlə şərtlənsə də, sonralar iqtisadi, hərbi təhlükəsizlik və digər amillər də miqrasiyaya təkan vermişdir. Orta əsrlərdə Avropa ölkələri tərəfindən həyata keçirilən müstəmləkəçilik siyasəti nəticəsində miqrasiyanın yeni dalğaları meydana gəlmişdir.

Müstəmləkəçilikdən əldə edilən həm iqtisadi, həm də elmi üstünlüklərin nəticəsi kimi XVIII əsrdən başlayaraq Avropada vüsət alan sənaye inqilabı və bu qitənin sürətli inkişafı nəticəsində Avropanın, XX əsrin əvvəllərindən başlayaraq həmçinin ABŞ-ın da əmək miqrantları üçün cəlbediciliyi daha da artmışdır.

Bu proses İkinci Dünya müharibəsindən sonra daha da intensivləşmiş, Asiya, Afrika və Latın Amerikasından Avropa, ABŞ, Kanada və Avstraliyaya güclü miqrant axını baş vermişdir. Nəhayət, bu istiqamətdə miqrasiyanın yeni bir dalğası sosializm sistemi və SSRİ-nin dağılmasından sonra əmələ gəlmişdir [1, s.1].

## 2. Miqrasiyanın mahiyyəti

Araşdırmalarımız göstərir ki, ilkin olaraq heyvan və bitki aləmi üçün istifadə olunan “miqrasiya” və “miqrant” anlayışlarının insanlara tətbiqdə ümumi qəbul edilmiş tərifi yoxdur. Məsələn, BMT-nin Beynəlxalq Miqrasiya Təşkilatı (UN International Organization for Migration) “miqrant” anlayışına beynəlxalq hüquqda tərif verilmədiyini qeyd edərək, bu termini müəyyən səbəblər üzündən “müvəqqəti və ya daimi olaraq və adi yaşayış yerini tərk edən şəxs” kimi səciyyələndirir. Burada yerdəyişmə həm ölkə daxilində, həm də digər ölkəyə köçməni nəzərdə tutur. Beləliklə, miqrant dedikdə yaşayış yerini müvəqqəti və ya daimi dəyişən subyekt nəzərdə tutulur. BMT-nin bu tərifi bir sıra hüquqi sənədlərdə təsbit olunan müəyyən əmək miqrantları, xarici tələbələr və s. kimi kateqoriyaları da əhatə edir. Eyni zamanda BMT-nin uyğun saytında bu tərifin hüquqi kateqoriya statusuna iddia etmədiyi qeyd olunur [2].

Məşhur Britannica lüğətində yanaşma fərqlidir – burada yalnız daimi köçmə miqrasiya sayılır, müddətindən asılı olmayaraq müvəqqəti yerdəyişmələrin heç biri (o cümlədən, əmək məqsədli yerdəyişmələr) miqrasiya kateqoriyasına aid edilmir [3].

“Adətən qarışdırılan sözlər (Commonly Confused Words)” saytında belə tariflər verilir [4]:

- *Emiqrasiya* başqa ölkədə yaşamaq məqsədilə öz ölkəsini tərk etməkdir.
- *İmmiqrasiya* daimi yaşamaq məqsədilə başqa ölkəyə gəlməkdir.
- *Miqrasiya* yerdəyişmədir (quşlar kimi).

Mark Blackwoodun 2020-ci ildə çap olunmuş məqaləsində maraqlı yanaşma təklif olunur. Əvvəla, “miqrasiya”, “emiqrasiya” və “immiqrasiya” terminlərinə ümumi qəbul olunmuş məna versə də, müəllif hesab edir ki, **immiqrasiya daimidir**, **miqrasiya və emiqrasiya isə daimi olmaya bilər** və sonunculara müəyyən səbəblərdən (mövsümi iş, layihə çərçivəsində iş və iqlim) bir neçə aylıq başqa ölkəyə köçməni misal gətirir. Başqa sözlə, miqrasiya daha geniş anlayış olmaqla həm immiqrasiyanı, həm də müvəqqəti emiqrasiyanı əhatə edir.

*İmmiqrasiya* dedikdə, daimi yaşamaq niyyəti ilə başqa ölkəyə gəlmə prosesi, *emiqrasiya* sözü altında isə “doğma regionu tərk etməklə başqa yerdə daimi yaşayış axtarışı

prosesi nəzərdə tutulur"[5]. Bundan başqa müəllif geniş yayılmış təcrübədən fərqli olaraq yalnız könüllü köçənləri miqrant kateqoriyasına aid edir, onları yaşayış yerlərini daimi olaraq dəyişən digər köçkünlərlə qarışdırmaqdan çəkindirir və bu məqsədlə aşağıdakı tərifləri irəli sürür [5]:

- *Miqrant* müəyyən səbəblərə görə könüllü olaraq yaşayış ölkəsini dəyişən şəxsdir.
- *Qaçqın* müharibə və ya irimiqyaslı zorakılığa məruz qalma təhdidinə görə öz evlərində həyatlarının təhlükə altına düşməsi səbəbindən yaşayış ölkəsini dəyişən şəxsdir. Ən yaxşı halda belə şəxslər öz vətənlərinə yalnız vəziyyət yaxşılaşandan sonra qayıtmağı planlaşdıra bilərlər.
- *Sığınacaq istəyən* qaçqından fərqli olaraq daha az zorakılığa məruz qalma təhlükəsi səbəbindən yaşayış ölkəsini dəyişən şəxsdir. Belə təhlükələr, əsasən, dövlət və ya yerli kriminal ünsürlər tərəfindən təqiblərə məruz qalma şəklində ola bilir. Qaçqından fərqli olaraq bu kateqoriya yerdəyişənlərin evlərinin dağıdılma təhlükəsi olmur, amma vətəndə qalmaq həyat üçün təhlükəli olur.

Beləliklə, bu müəllif qaçqın və sığınacaq istəyənləri miqrant saymır və onların başqa ölkəyə köçməsini miqrasiya hesab etmir, yalnız könüllü yer dəyişənləri miqrant sayır. Digər tərəfdən də miqrant üçün daimi qalma niyyətini qabardır.

Biz "miqrant" və "miqrasiya" anlayışlarına müxtəlif yanaşmaları araşdırdıqdan sonra bu terminlərin tərifinə aşağıdakı yanaşmanı təklif edirik:

Miqrant hər hansı səbəbə görə yaşayış yerini tərk edərək, bir ildən çox müddətə başqa yerə köçən şəxsdir. Miqrasiya miqrant statusuna nail olma prosesidir.

"Miqrant", "immiqrant" və "emiqrant" terminlərini isə yuxarıda "Adətən qarışdırılan sözlər" saytında [4] qeyd olunduğu kimi, başqa sözlə, immiqrant miqranta qəbul edən, emiqranta isə göndərən ölkə nöqteyi-nəzərindən baxış kimi istifadə edəcəyik.

Bizim təklif etdiyimiz bu təriflərin iki mühüm əsası var:

- Biz miqrasiyanın, əsasən, sosial və iqtisadi aspektinə xüsusi fikir veririk. Bu baxımdan biz yerdəyişmənin aşağıda sadalanan çoxsaylı səbəblərini, demək olar ki, nəzərə almırıq. Sözsüz ki, miqrantın ölkəyə gəlmə səbəbinin siyasi, mənəvi və ya digər aspektləri həm qəbul edən, həm də göndərən ölkənin uyğun səlahiyyətli orqanları üçün böyük əhəmiyyət kəsb edə bilər – bu şübhəsizdir. Lakin biz burada, əsasən, onun sosial-iqtisadi səbəb və nəticələrini araşdıracayıq.
- Məhz yuxarıda göstərilən səbəbdən biz, əsasən, əmək miqrasiyasına fokuslanırıq və miqrantlar üçün bir ildən çox müddəti təyin edirik. Bir ili qeyd edərkən biz sadəcə olaraq iqtisadi nəzəriyyədə kapital axınını pul axınından fərqləndirən dövrü götürürük. Sözsüz ki, bu müddət şərtidir – hansısa yanaşma 3 və ya 5 il müddətini tələb edə bilər.

### 2.1. *Miqrasiyanın növləri*

İnsanların yerdəyişməsinin müxtəlif səbəb və motivləri ola bilər. Ümumi olaraq, bu motivlərin iqtisadi amillərlə heç bir əlaqəsi olmaya bilər. Məsələn, aşağıda gördüyümüz kimi, insanlar xəstəliyinə görə iqlim şəraitini dəyişdirmək zərurəti ilə, siyasi təqibə məruz qalmaq, qohumlarına qovuşmaq, hərbi konfliktdən uzaqlaşmaq kimi səbəblərə görə öz yaşayış yerini dəyişə bilər. Göründüyü kimi, burada sadalanan səbəblər arasında heç bir iqtisadi motiv yoxdur. Lakin istənilən insan miqrasiyası əksər hallarda işçi qüvvəsinin yerdəyişməsi olduğuna görə bunun həm göndərən, həm də qəbul edən tərəf üçün ciddi iqtisadi təsirləri olduğundan miqrasiyanın bütün formalarının öyrənilməsi həm də iqtisadi məsələ olmaqla böyük önəm kəsb edir. Buna görə biz miqrasiyanın növlərini ətraflı tədqiq edirik.

Miqrasiya sahəsində aparıcı araşdırmaçılardan olan Chris Drew 2023-cü ildə yazdığı məqalələrində miqrasiyanın aşağıdakı növlərini fərqləndirir.

1) Həmişəlik (geri qaytarılmadan) miqrasiya – yaşayış yerinin, bir qayda olaraq, həmişəlik dəyişməsi [6, s.218];

2) Zəncirvari miqrasiya (chain migration) – adamların qruplarla miqrasiyası [7]. Belə miqrasiyanın əsas səbəblərindən biri təklikdə miqrasiya ilə müqayisədə ucuz başa gəlməsidir – ailənin bir yerdə olması və ya dostların resurslarını birləşdirərək, xərclərini bölüşdürməsi daha qənaətcildir. Belə miqrasiyada çətinlik hallarında qarşılıqlı yardımın da böyük əhəmiyyəti var. Dünyanın müxtəlif ölkələrində Çin, İrlandiya və İtaliya məhəllələri zəncirvari miqrasiyanın nümunəsidir [8]. Qeyd edək ki, ermənilər də bu üsuldan geniş istifadə edirlər.

3) Dövri miqrasiya (cyclical migration). Miqrasiyanın bu növü miqrantın miqrasiya elədiyi yerlə vətən arasında mütəmadi hərəkətini nəzərdə tutur. Bu, müxtəlif amillərlə əlaqədar ola bilər. Məsələn, mövsümi işlər üçün gedənlər bir müddət kənarda işlədikdən sonra vətənə qayıdır və bu hər il təkrarlanır. Buna misal olaraq, şəkər qamışı yığımı dövründə milyonlarla adamın xarici ölkələrdən Braziliyaya işləməyə gəlməsini, iş bitdikdən sonra isə evlərinə qayıtmasını göstərmək olar.

Digər misal, mədəni və ailə əlaqələrinə aid olan meksikalı miqrantların milli bayramlarda vətənlərinə gəlməsidir.

Üçüncü amil olaraq, ətraf mühit amilləri və bunun misalı kimi Efiopiyada mursi xalqının hər il mal-qara otarmaları məqsədilə Omo çayı vadisinə köçmələri göstərilir [8].

Miqrasiya üzrə qlobal forum inkişaf məqsədilə dövri miqrasiyanın təşviq olunmasını tövsiyə edir [9, s.1]:

4) Müvəqqəti miqrasiya (Temporary migration). Dövri miqrasiyanı da ehtiva edən, lakin daha geniş mənada istifadə olunan miqrasiyanın bu növü "sonradan mənşə ölkəsinə qayıtmaq və ya üçüncü istiqamətdə miqrasiyanı davam etdirmək niyyəti ilə müəyyən bir motivasiya və ya məqsədlə köç" kimi tərif olunur [10, s.16].

5) Sirkulyar (dairəvi) miqrasiya (Circular migration). Həm də təkrarlanan miqrasiya adlanan bu növün müvəqqəti miqrasiya ilə oxşarlığı olsa da, Avropa Miqrasiya Şəbəkəsi

(European Migration Network (EMN)) onları fərqləndirir (EMN Avropa İttifaqında (Aİ) miqrasiya və sığınacaqla əlaqədar məsələlərin tədqiqi və bu istiqamətdə siyasət təklifləri hazırlayan mütəxəssisləri birləşdirir [11]). Sirkulyar miqrasiya EMN-in lüğətində "iki və ya daha çox ölkə arasında eyni şəxs tərəfindən qanuni miqrasiyanın təkrarlanması" kimi tərif olunur [10, s.16]. Sirkulyar miqrasiyanın müvəqqəti miqrasiyadan əsas fərqi kimi ikincinin, əsasən, birdəfəlik xarakterli olduğu halda, birincinin isə hətta səfər qurtardıqdan miqrantın təkrar olaraq Aİ-yə gəlməsində sadələşdirilmiş prosedurlar nəzərdə tutula bilər.

Sirkulyar miqrasiya nümunəsi kimi Aİ-də nisbətən geniş yayılmış aşağıdakı iki hal misal gətirilir [12, s.12-13]:

- Aİ-də məskunlaşan üçüncü ölkə vətəndaşlarının sirkulyar miqrasiyası. Məhz Aİ-yə xas olan, digər bölgələrdə az rast olunan bu hal insanlara Aİ-yə üzv olan vətənində işləmək, lakin **əsas** yaşayış yerlərini Aİ-nin başqa ölkəsində saxlamaq imkanı verir. Bu kateqoriyaya müxtəlif qruplar aid ola bilər. Məsələn, Aİ-nin Brüsseldə yerləşən hansısa strukturunda çalışan şəxsin öz vətənində biznes açması və ya uzun müddət digər ölkədə məskunlaşıb işləmiş şəxsin (professor, həkim və ya digər mütəxəssisin) öz vətəninə dəstək məqsədilə fəaliyyətini oraya keçirməsi [12, s.12].
- Üçüncü ölkədə yaşayan şəxslərin sirkulyar miqrasiyası. Miqrasiyanın bu növü üçüncü – qeyri-Aİ ölkəsində yaşayan şəxslərin, əsasən, təhsil, iş, təcrübə və digər məqsədlərlə müvəqqəti olaraq AB-yə gəlməsi üçün bir imkan yarada bilər. Lakin bir qayda olaraq, belə şəxslərin giriş müddəti məhdud olur və bu müddət bitdikdən sonra onlar Aİ-ni tərk etməlidirlər. Eyni zamanda vətənə qayıtdıqdan sonra onlar üçün müvəqqəti miqrasiya etdikləri ölkəyə yenidən girişin sadələşdirilmiş prossedurları şəklində imtiyazlar tətbiq oluna bilər. Miqrasiyanın bu növü çox geniş hallar əhatə edə bilər [12, s.13]. Məsələn:

– Üçüncü ölkə vətəndaşının Aİ-də mövsümi işləməsi;

– Üçüncü ölkə vətəndaşının Aİ üçün maraq kəsb edən sahədə könüllü ödənişsiz işləmək istəyi;

– Üçüncü ölkənin tədqiqatçısının Aİ-də tədqiqat layihəsi üzərində işləmək istəyi;

– Üçüncü ölkə vətəndaşının Aİ-də təhsil almasından sonra vətənində mümkünsüz olan təcrübə keçmək istəyi;

– Üçüncü ölkə vətəndaşının mədəniyyət və digər sahələrdə mübadilə istəyi (bu, tanışlıq səfəri, seminarlar, təhsil kursları və digər tədbirlər formasında ola bilər).

Tədqiqatlar dairəvi miqrasiyanın iqtisadi artıma müsbət təsir göstərə bilməsini aşkara çıxarır [13].

6) Siyasi qeyri-stabillik səbəbilə miqrasiya. Bu, aşağıda göstərilən məcburi miqrasiyanın bir növü olmaqla, siyasi qeyri-stabillik nəticəsində həm şəxslərin, həm də biznesin təhlükəsizliyinin təmin olunmaması səbəbi ilə baş verir. Hökumətin vətəndaşlarını qoruya bilməməsi insanların öz evlərini tərk etmələrinə səbəb olur [14]. Əhalinin Ermənistandan

miqrasiyasının bir səbəbi də siyasi qeyri-stabillikdir ki, bu da parlamentin məlum güllələnməsi, ciddi siyasi qarşıdurmalar və səngiməyən mitinqlərdə təzahür olunur.

7) İqtisadi miqrasiya – öz həyat səviyyəsini yüksəltmək məqsədilə yeni iş yeri tapmaq üçün köçmə. Belə miqrasiya qəbul edən ölkənin vətəndaşları tərəfindən bəyənilmir. Buna bizim üçün ən yaxşı misal XX əsrin əvvəllərində Bakıda neft bumu dövründə şəhərimizə çoxlu sayda miqrantların gəlməsini misal gətirmək olar.

İqtisadi motivlərlə ölkədən emiqrasiyanın səbəbləri müxtəlif ola bilər: işsizlik, xroniki yoxsulluq, qlobal təchizat zəncirlərinin deformasiyası, hiperinflyasiya və s. Məsələn, 2014-cü ildən etibarən siyasi və iqtisadi qeyri-stabillik səbəbilə Venesuelanı təxminən 1,5 milyon insan tərk edərək, qonşu ölkələrə köçmüşdür [14].

8) Təbii fəlakətlər səbəbilə emiqrasiya. Son vaxtlar belə fəlakətlərin – zəlzələ, daşqın, meşə yanğınları və qasırğaların dünya üzrə sayı artmışdır ki, bu da insanların kütləvi miqrasiyasına səbəb olur. Məsələn, 2010-cu ildə Haitidə baş verən zəlzələ ölkəyə 8,5 milyard dollar ziyan vurmaqla, 1,5 milyon insanın öz vətənindən didərgin düşməsinə səbəb olmuşdur, ancaq Braziliyaya 85000, Amerika Birləşmiş Ştatlarına isə 48000 qaçqın köçmüşdür [14].

Son 100 ilin ən fəlakətli zəlzələsi sayılan 6 fevral 2023-cü il Türkiyədəki zəlzələ nəticəsində minlərlə binanın və iş yerlərinin dağılması nəticəsində sağ qalan əhalinin (qeyd edək ki, zəlzələdə 50 mindən çox adam həlak olmuşdur) böyük hissəsi daxili miqrasiyaya məruz qalmışdır [15].

9) Ətraf mühit miqrasiyası (Environmental Migration) ekoloji amillərlə (ətraf mühitin çirklənməsi, iqlim dəyişikliyi, təbii fəlakətlər və s.) əlaqədar doğma torpaqların tərk olunmasını nəzərdə tutur. Bir çox hallarda ekoloji miqrantlar məcburi köçkün kateqoriyasına aid edilmir, buna görə də onlar işlə təmin olunma, hüquqi mühafizə və sosial dəstək məsələlərində ciddi problemlərlə üzləşir və ayrıseçkiliyə məruz qalırlar. Miqrasiyanın bu növünün XXI əsrdə güclü artımı proqnozlaşdırılır. Yaxın 80 ildə Vyetnam kimi ovalıqlarda yerləşən regionlardan daşqınlar səbəbilə 150 milyon məcburi köçkün meydana gələ bilər [8].

10) Daxili münaqişə səbəbilə emiqrasiya. Müxtəlif siyasi və ya iqtisadi qüvvələr, etnik və ya dini qruplar arasında baş verən münaqişələr elə bir şiddətli həddə çatdıra bilər ki, ölkəni hərtərəfli iflic vəziyyətinə salmaqla insanların normal yaşayışı və təhlükəsizliyi üçün dözümsüz ola bilər. Bu halda ölkədən kütləvi emiqrasiya baş verir. Dövrümüzdə buna misal Suriyadakı daxili qarşıdurma nəticəsində 6,6 milyondan çox insanın qaçqın və 6,7 milyonun məcburi köçkün halına düşməsidir [14].

11) Müharibə səbəbilə emiqrasiya. Bu səbəblə ən kütləvi miqrasiya İkinci Dünya müharibəsi dövründə baş vermiş, 5 il ərzində 40 milyon insan öz doğma diyarlarından didərgin düşmüşdür. ABŞ-ın İraqda törətdiyi müharibə nəticəsində isə 3,2 milyon iraqlı qaçqın və məcburi köçkün həyatı yaşamaq zorundadır. Rusiyanın Ukraynadakı dağıdıcı müharibəsi də milyonlarla insanı xaricə, əsasən, Polşaya qaçmağa məcbur etmişdir [14].

12) Xarici miqrasiya (external migration) – başqa ölkəyə miqrasiya. Bu, ölkədaxili miqrasiyanın əksinə olaraq müəyyən səbəb və ya məqsədlərlə başqa ölkəyə köçməyi nəzərdə tutur [8].

13) Daxili miqrasiya (interanal migation) – ölkə hüdudları daxilində yerdəyişmə [8].

Burada da səbəblər müxtəlif ola bilər:

- Ən geniş yayılmış daxili inteqrasiya forması *urbanizasiyadır* – bu, bütün dünyada müşahidə olunur.
- İkinci mühüm səbəb *təbii fəlakətlərdir* – 2023-cü Türkiyədəki böyük güclü zəlzələ genişmiqyaslı daxili miqrasiyaya səbəb oldu, evsiz qalan on minlərlə insan ölkənin başqa regionlarına – qohumlarının yanına köçəsi oldu.
- *Siyasi motivlərə görə təqib*. Bu səbəbə görə daxili miqrasiya SSRİ-də 1937-ci illərdə geniş yayılmışdı – ailə üzvünün repressiya olunması səbəbi ilə bütün ailə təqibdən yaxa qurtarmaq üçün ölkənin başqa regionlarına köçməli olurdu. Bu praktika Azərbaycanda da geniş yayılmışdı. SSRİ dağılandan sonra açılan arxivlərdən məlum oldu ki, Azərbaycanın bolşevik hakimiyyətində üstünlük təşkil edən erməni ünsürləri nüfuzlu Azərbaycanlılara və onların ailələrinə qarşı məqsədyönlü repressiya və etnik təmizləmə siyasəti həyata keçirmişlər. Qarabağ və Gəncə bölgəsində, xüsusən də Şuşada bu daha intensiv şəkildə həyata keçirilirdi. Belə ailələrin kütləvi şəkildə Azərbaycanın başqa regionlarına, əsasən, kənd yerlərinə köçmələri bu siyasətin nəticəsidir.
- *Qohumlara yaxın olma*. Xüsusən urbanizasiya səbəbilə böyük şəhərlərə köçən övladların qoca valideynlərinə qulluq etmə məqsədilə onları da öz yanlarına gətirməsi halları müşahidə olunur. Azərbaycanda, xüsusən də valideynlərdən birinin rəhmətə getməsindən sonra digər valideyni (hətta onun istəyinə zidd olaraq) şəhərə köçürməsi geniş yayılmış praktikadır.
- *İqtisadi səbəb*. Regionda gəlir gətirən sahənin tənəzzülü (məsələn, böyük zavodun bağlanması və ya təbii-iqlim səbəbilə hansısa mühüm və ənənəvi kənd təsərrüfatı məhsulunun yetişdirilməsindən imtina) kütləvi daxili miqrasiyaya səbəb ola bilər.

14) İnsan hüquqlarının pozulması səbəbilə emiqrasiya. İnsan hüquqları pozulması müxtəlif şəkillərdə təzahür oluna bilər:

- Dini diskriminasiya. Fransada müsəlmanlara qarşı ayrıseçkilik absurd həddə çatmışdır. İnsanların çimərliklərə üst paltarda daxil olmaları, ramazan ayında futbol matçlarında iftar üçün kiçik fasilə qadağan olunmuşdur. Müsəlmanlara qarşı oxşar münasibət Çində, Hindistanda, Myanmada da geniş yayılmışdır.

Məsələn, Myanmadakı Rohingya xalqı illərdir islam dininə görə hökumət və hərbçilər tərəfindən təqib olunur [16]. Myanma hərbçiləri tərəfindən Rohingya xalqının soyqırım cəhdi 2018-ci ildə 700.000-dən çox bu xalqın nümayəndəsinin başqa ölkələrə emiqrasiyasını şərtləndirdi [14].

- İdeoloji baxışlara görə diskriminasiya. Bu praktikanın SSRİ-də geniş yayıldığı məlum faktdır. Hazırda belə hallar Şimali Koreya, Rusiya və digər totalitar rejimlərdə müşahidə olunur.
- Uşaqların məcburi olaraq silahlı münaqişələrə cəlb edilməsi. Biz bunun Ermənistan tərəfindən həyata keçirilməsini İkinci Qarabağ müharibəsində müşahidə etdik.
- Dövlətin etnik təmizləmə siyasəti. Azərbaycan torpaqlarında süni olaraq yaradılmış Ermənistan dövlətinin yarandığı ilk gündən azərbaycanlılara və digər xalqlara qarşı belə siyasəti çoxsaylı faktlarla təsdiqlənən təkzibolunmaz həqiqətdir.
- Dövlətin məcburi assimilyasiya siyasəti. Ermənistan hökuməti bu metoddan da geniş istifadə edir – bu ölkədə yaşayan başqa millətlərin soyadlarının məcburi dəyişdirilməsi, onların dini və milli ayinlərinə riayət etmə cəhdlərinə maneələr yaradılması belə insanların ölkəni tərk etmələrinin səbəblərindəndir. Buna misal yəhudi mənşəli məşhur şahmat qrossmeysteri Lev Aronyanın (həqiqi soyadı Aronov) ABŞ-a mühacirət etməsini, dini və milli ayrıseçkiliyə məruz qalmış, hazırda Kanadada yaşayan məşhur blogger Albert İsakovu göstərmək olar.

Digər misal Suriya, İraq, Səudiyyə Ərəbistanı kimi ölkələrdə həqiqəti söyləyən jurnalistlərin qaçırılması, öldürülməsi və ya başqa şəkildə təqib olunmalarıdır. Bu səbəbdən 2022-ci ildə Rusiyada KİV nümayəndələrinin fəaliyyətini xeyli məhdudlaşdıran yeni qanunun qüvvəyə minməsindən sonra Ukrayna işğalı ilə bağlı həqiqətləri yayan 150-dən çox jurnalist Rusiyanı tərk etmişdir [14].

15) Məcburi miqrasiya – öz iradəsinə qarşı yerdəyişmə. Burada qaçqınlarla məcburi köçkünlər fərqləndirilir. *Qaçqınlar* başqa ölkəyə miqrasiya edir, *məcburi köçkünlər* isə daxili miqrantlardır – onlar daxili yerini dəyişən şəxs (internally Displaced Person) adlanır [17].

Bu iki qrupdan başqa *sığınacaq istəyən şəxs* anlayışından da istifadə olunur. Bu kateqoriyaya öz evlərini tərk edib, beynəlxalq mühafizəyə iddia edən, lakin statusu hələ müəyyən olunmayan şəxslər aiddir. Qaçqın statusu almaq istəyən əvvəl sığınacaq istəyən şəxs kimi müraciət edir, lakin hər belə müraciət təmin olunmur, bu halda iddiaçı vətəninə qaytarılır [18].

Ermənistandan qaçqın problemi Azərbaycan üçün vacib olduğundan bunun üzərində ətraflı dayanaq. BMT-nin Qaçqınlar üzrə ali komissarının (United Nations High Commissioner for Refugees - UNHCR) (başqa adı BMT-nin Qaçqınlar üzrə Agentliyi) qəbul etdiyi konstitusiyaya görə dövlətlər "vətəndaşları olduqları və ya əvvəllər adi qaydada yaşadıqları ölkələrə qayıtmaları və ya başqa yerdə yeni ev tapılmasında qaçqın və köçkünlərə köməklik göstərməlidir. Qaçqın və məcburi köçkünlərin geri qayıtması və ya yenidən məskunlaşması başa çatmayana qədər onların hüquqları mühafizə olunmalı, imkan daxilində onlara qayğı və kömək göstərilməli, işlə təmin olunmalıdırlar" [19].

2010-cu ildə dünyada 16,3 milyon qaçqın var idi ki, bu da ümumi miqrantların 7,6%-ni təşkil edirdi. 2013-cü ildə bu rəqəm 19,5 milyona qədər artmış, xüsusi çəkisi isə demək olar ki, sabit qalmışdır – 7,9% [20].

2018-ci ildə Suriyadakı hadisələr və Krım böhranının da təsir ilə məcburi miqrantların sayı artaraq, dünya üzrə 67,2 milyon olmaqla onların 25,9 milyonu qaçqın, 41,3 milyonu isə məcburi köçkün təşkil etmişdir [21, s.4].

BMT-nin Qaçqınlar üzrə ali komissarı (United Nations High Commissioner for Refugees - UNHCR) məlumatına görə dünyada 82 milyondan çox məcburi qaçqın var [8]. Ukrayna böhranı başlanmazdan öncə 2022-ci ilin əvvəli üçün dünyada 20,8 milyon qaçqın; 50,8 milyon məcburi köçkün; 4,4 milyon sığınacaq axtaran; 4,2 milyon vətəndaşlığı olmayan şəxs; bundan əlavə, 5,7 milyon fələstinli qaçqın qeydiyyata alınmışdır [18].

Təcrübə göstərir ki, qəbul edən ölkələrin vətəndaşları məcburi miqrantlara daha loyal münasibət bəsləyir. Bununla bərabər, qeyd etdiyimiz kimi, dövlətlər bu kateqoriya miqrantları həvəslə qəbul eləmir. Bunun ən yaxşı misalı Avropa ölkələrinin, xüsusən Yunanıstanın Suriyalı qaçqınlara olan antihumanist münasibətidir.

Qaçqın və məcburi köçkünlüyün müxtəlif formalarının ayrıca miqrasiya növü kimi şərhi:

16) İqlim dəyişikliyi səbəbilə miqrasiya. İqlim dəyişikliyi qısamüddətli ekoloji fəlakətlərə səbəb və müəyyən periodikliyə malik olsa da, uzunmüddətli miqrasiya ilə nəticələnə bilir. Məsələn, dəniz səviyyəsinin yüksəlməsi və güclü fırtınalar artıq Maldiv adaları və Kiribati kimi sahil ölkələrinin iqlim dəyişikliyi nəticəsində su altında qalma təhlükəsini yaradır və buna görə əhalinin miqrasiyasına səbəb olur. Başqa nümunə, quraqlıq səbəbi ilə Afrikanın Sahil bölgəsindən son bir neçə ildə milyonlarla insanın miqrasiyasıdır [14]. Efiopiya və Somali kimi ölkələrdə bu, milyonlarla insanın köç etməsinə səbəb olmuşdur [22].

17) Könüllü miqrasiya. Məcburi miqrasiyadan fərqli olaraq belə miqrantların vətəndə qalmasına xüsusi bir maneə olmur, yerdəyişmə miqrantın öz iradəsi ilə gerçəkləşir. Belə miqrasiyanın əsas səbəbləri başqa mədəniyyət və ya həyat tərzinə üstünlük vermə, daha yaxşı həyat və gəlir şəraiti, sadəcə uzunmüddətli səyahət ola bilər. Məsələn, Birləşmiş Krallığa daxil olan Britaniya, Kanada və Avstraliyaya səyahət etmək üçün gənclərə təklif olunan mobil vizalar onlara 4 il ərzində bu və digər ölkələri orta müddət ərzində gəzmək imkanı verir [8].

Digər misal İkinci Qarabağ müharibəsindən sonra Ermənistan hökumətinin ölkənin Azərbaycanla sərhəd ərazilərinə köçün stimullaşdırılması və bunun nəticəsi kimi, az də olsa, belə miqrasiyalardır [23].

18) İnsan alveri və istismarı məqsədilə məcburi miqrasiya. Quldarlıq dövründə adi və leqal hal olan bu praktika müasir dövrdə qadağan olunsa da, xüsusən son dövrlərdə geniş yayılmışdır. Məsələn, Mərkəzi Amerikadan olan qız və qadınlar iradələrinə zidd olaraq zorla və ya iş vədi ilə ABŞ-a aparılır, lakin bu ölkəyə gəldikdən sonra onların sənədləri əlindən alınaraq, zorla müxtəlif işlərdə (əsasən fahişəlik və evlərdə qulluqçu) işləməyə məcbur edilirlər [14].

SSRİ dağılandan bilavasitə sonra Rusiyada insanların zorla dilənçiliyə cəlb olunma, hətta bu məqsədlə kimsəsiz adamların əvvəl şikəst edilməsi halları geniş yayılmışdı.

19) Regionlararası miqrasiya – insanların ölkənin bir bölgəsindən digərinə köçməsini əks etdirir. Nisbətən sadə olan bu miqrasiya növünün səbəbləri müxtəlifdir [8]. Buna misal SSRİ-də Vətəndaş müharibəsi və İkinci Dünya müharibəsi dövrlərində aclıq üzündən ölkənin şimal hissəsində yaşayan əhalinin cənub regionlara miqrasiyasıdır.

Belə miqrasiya ABŞ-da Böyük Depressiya vaxtı, xüsusən güclü toz fırtınalarından sonra yaranan quraqlıq səbəbindən olmuşdur [24].

20) Cinsi zorakılıq səbəbilə emiqrasiya. Bəzi ölkələrdə qadınlara qarşı diskriminasiya və zorakılıq halları ya qanunla təsbit olunur, ya da dövlət orqanları tərəfindən buna göz yumulur.

Məsələn, bu səbəblə Mərkəzi Afrika Respublikasındakı qadın və qızlar evlərini kütləvi şəkildə tərk edirlər. Bəzi hallarda qaçış da riskli olur, çünki qaçqın dəhlizlərində də qadınlar zorakılığa məruz qala bilir [14].

Burada miqrasiya ilə bağlı daha bir məsələni qeyd etmək zəruridir. Bir çox, xüsusən də iqtisadi cəhətdən inkişaf etmiş Qərb ölkələrində (məsələn, Kanada, Niderland və s.) "cinsi zorakılıq" anlayışı tamamilə başqa mənada tətbiq olunur – uşaqların öz cinslərini dəyişdirmək istəyinə qarşı valideynlərin etirazı "cinsi zorakılıq" kimi qiymətləndirilir və hətta valideynlik hüququndan məhrum olunma tədbirinədək cəzalandırıla bilir. Bu səbəblə insanların həmin ölkələrdən miqrasiyası da son vaxtlar geniş yayılmaqdadır.

21) Regiondaxili miqrasiya – ölkənin bir bölgəsi daxilində qısa məsafəli yerdəyişməni əks etdirir [8]. Əsasən, iqtisadi motivlərə görə kənd yerindən şəhər və ya qəsəbəyə köç kimi təzahür edir.

22) Dinin məcburi dəyişdirilməsi səbəbilə emiqrasiya. Məsələn, Çinin Sincan vilayətində yaşayan müsəlman uyğur əhali Çin hökuməti tərəfindən məqsədyönlü şəkildə öz dinlərindən uzaqlaşdırılma siyasətinə məruz qalırlar ki, bu da bu əhalinin ölkədən kütləvi köçünə səbəb olur.

23) Mərhələli miqrasiya (step migration). İlk dəfə 1885-ci ildə Ravenstein tərəfindən təklif olunan bu konsepsiyaya görə şəhərə köç etmək istəyən daxili miqrantlar ucuzluq səbəbilə ilk olaraq böyük şəhərin ətrafındakı qəsəbəyə köçür, böyük şəhərdə iş tapır, iqtisadi imkanı yaxşılaşdıqdan sonra isə növbəti mərhələdə şəhərə köçür [8].

Bakının ərazisinin böyüklüyü və şəhər mərkəzindən uzaq məsafələrdə yaşayış üçün əlverişli qəsəbələrin mövcudluğu mərhələli miqrasiyanı populyar edir.

Bu strategiyadan inkişaf etmiş ölkələrə (ABŞ, Qərbi Avropa, Kanada və s.) miqrasiya edənlər geniş istifadə edir - əvvəl ölkənin təklif etdiyi ərazilərdə məskunlaşırlar, vətəndaşlıq aldıqdan sonra istədikləri bölgəyə köçürlər [8].

24) Transmilli miqrasiya. Belə miqrantlar başqa ölkəyə köçmələrinə, orada işləyib yaşamalarına rəğmən vətənləri ilə sıx əlaqəni qoruyub saxlayır, mütəmadi olaraq vətəndəki qohumlarına pul göndərir, imkan olan kimi, xüsusən də bayramlarda və ailənin tədbirlərində

iştirak etmək üçün tez-tez vətənə gəlirlər. Qloballaşma, sürətlərin artması və nəqliyyatın ucuzluğu transmilli miqrasiyanın geniş yayılmasına səbəb olmuşdur. Bildiyimiz kimi, azərbaycanlılar arasında da miqrasiyanın bu növünə tez-tez rast olunur [8].

25) Aclıq səbəbilə miqrasiya. Aclığın əsas səbəbi yuxarıda tədqiq olunan quraqlıq olsa da, genişmiqyaslı müharibə və uzunmüddətli daxili konfliktlər də kütləvi aclıqla nəticələnə bilər. Məsələn, belə daxili miqrasiyalar SSRİ-də 1917-30-cu illər vətəndaş müharibəsi və İkinci Dünya müharibəsi dövründə, xüsusən SSRİ-nin şimal ərazilərindən cənub bölgələrinə - Mərkəzi Asiya və Cənubi Qafqaza.müşahidə olunmuşdur.

Müasir dövrdə Suriyalı qaçqınların müəyyən qismi, həmçinin qida tapmama səbəbindən ölkəni tərk etmişlər. Eyni səbəb Yəməndə də müşahidə edilir. Yeri gəlmişkən, Yəmən aclıq indeksinə görə dünyada birinci yerdədir [25].

**Nəticə.**

1. Miqrasiyanın ümumi qəbul olunmuş tərifi yoxdur. Miqrantların (xüsusən beynəlxalq miqrantların) statusunun təsbit olunmasında müxtəlif ölkələrdə yanaşmalar müxtəlifdir. Ümumi cəhət ondan ibarətdir ki, beynəlxalq konvensiyalar qəbul edən ölkələrdən qaçqın statuslu miqrantlara xüsusi şərait yaratmağı tələb etdiyindən, bu ölkələrin dövlətləri belə statusların verilməsindən qaçmağa çalışırlar.

2. Miqrasiyanın yuxarıdakı növləri ciddi mənada təsnifat tələblərinə cavab vermir– eyni bir yerdəyişmə hadisəsi miqrasiyanın müxtəlif növlərini özündə ehtiva edə bilər.

3. Beynəlxalq miqrasiyada əksər hallarda işçi qüvvəsinin bir ölkədən başqa ölkəyə axını baş verir ki, bu da iqtisadiyyata güclü təsir edir.

4. Miqrasiyanın müxtəlif meyarlar üzrə təsnifatı onun səbəblərini araşdırmaq və miqrasiya siyasətini daha düzgün formalaşdırmaq imkanı verir.

## Ədəbiyyat


1. Абылкаликов С.И., Винник М.В. (2012), Экономические теории миграции: рабочая сила и рынок труда, Бизнес. Общество. Власть, No.12, 1–19.
2. About migration https://www.iom.int/about-migration
3. Human migration https://www.britannica.com/topic/human-migration
4. Commonly Confused Words. https://www.vocabulary.com/articles/chooseyourwords/emigrate-immigrate-migrate/
5. Blackwood M. (2020), Migration vs. Immigration: Understanding the Nuances. Migration vs. Immigration: Differences and Similarities (thewordpoint.com).
6. Исенгалиева М.Е. (2014), Факторы, влияющие на миграцию трудовых ресурсов в Республике Казахстан. Теория и практика общественного развития, No.4, 217-220.
7. What is Chain Migration? Definition & Examples. https://study.com/academy/lesson/what-is-chain-migration-definition-examples.html

8. Drew C. (2023, 14 March), 12 Types of Migration (Human Geography Notes). https://helpfulprofessor.com/types-of-migration/
9. Defining and Measuring Circular Migration (2016), United Nations New York and Geneva, 48.
10. Временная и циркулярная миграция: эмпирические данные, современная практика управления и варианты дальнейшего развития в странах Европейского Союза - Европейская Миграционная Сеть (2011), 84.
11. European Migration Network (2023, 30 May). https://home-affairs.ec.europa.eu/networks/european-migration-network-emn_en
12. Temporary and Circular Migration: empirical evidence, current policy practice and future options in EU Member States - European Migration Network (2011, October), 76.
13. Factors Influencing Migration and Population Movements https://triumphias.com/blog/factors-influencing-migration-and-population-movements/
14. 35 Forced Migration Examples, Causes and Effects - by Chris Drew (2023, February 28). https://helpfulprofessor.com/forced-migration-examples-causes-effects/
15. Макалюк Б. (2023, Февраля 18), Землетрясение в Турции: последствия смертоносного бедствия, какие страны пострадали, есть ли среди жертв украинцы
16. https://vikna.tv/ru/dlia-tebe/novyny-ukrayiny/zemletryasenie-v-turczii-skolko-ballov-i-kakoe-kolichestvo-lyudej-pogiblo/
17. Боевики-рохинджа признались в провоцировании геноцида собственного народа (2017, Сентября 27), https://lenta.ru/news/2017/09/27/rohingya/
18. Palmer J. (2017, June 26), Refugee or internally displaced: what's the difference? https://gobgr.org/refugee-or-internally-displaced-whats-the-difference/
19. Refugee vs. IDP vs. migrant (2022, April 22), What's the difference? https://www.concern.net/news/refugee-idp-migrant-difference-
20. Refugees and Displaced Persons 62 (I). https://www.unhcr.org/excom/bgares/3ae69ef14/refugees-displaced-persons.html
21. Human migration https://en.wikipedia.org/wiki/Human_migration#cite_note-18
22. Доклад о миграции в мире (2020), Международная организация по миграции, 550.
23. Giovetti O., McConville K. (2019, June 28), Forced migration: 6 causes and examples. https://www.concernusa.org/story/forced-migration-causes/
24. Badalian S. (2021, April 16), More Armenian border villages eligible for tax breaks, subsidies. https://www.azatutyun.am/a/31106046.html
25. Cook B., Miller R., Seager R. Did dust storms make the Dust Bowl drought worse? Dust storms in the 1930s Dust Bowl (columbia.edu)
26. The world's hungriest countries in 2022 (2022, October 13) https://www.concernusa.org/story/worlds-hungriest-countries/